## HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Azərbaycan musiqisinin klassiki, opera sənətimizin banisi, görkəmli alim, dramaturq, pedaqoq və ictimai xadim, dahi bəstəkar Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli 1885-ci il sentyabrın 18-də Şuşanın yaxınlığındakı Ağcabədi kəndində anadan olmuşdur. Doğulduqdan qısa müddət sonra Hacıbəyovlar ailəsi Azərbaycan mədəniyyətinin ən böyük mərkəzlərindən biri olan Şuşa şəhərinə köçmüş və Üzeyir məhz burada böyümüşdür.***

| | |
|---|---|
| **1897-1899** | İlk təhsilini Şuşa şəhərində Nəcəf bəyVəzirovun müdir olduğu rus-tatar məktəbində almışdır.<br><br>Gələcək bəstəkarın atası uzun müddət məşhur Azərbaycan şairəsi, ictimai xadim və Qarabağ xanının qızı Xurşidbanu Natəvanın şəxsi katibi idi, hansı ki, bəstəkarın tərbiyəsinə böyük təsiri olmuşdur.<br><br>Natəvanla tanışlıq gənc Üzeyir üçün ən yaxşı musiqi icmaları, Şuşanın məclislərinə yol açdı. O, gənc yaşlarından muğam ifaçılığı dərsləri almış və Azərbaycan xalq musiqi alətlərində çalmağı öyrənmişdir. |
| **1897** | Əbdürrəhim bəy Haqverdiyev və Cabbar Qaryağdıoğlunun "Leylinin qəbri üzərində Məcnun" ("Leyli və Məcnun" sevgi dastanından bir epizod) adlı teatr əsərində 13 yaşlı Üzeyir qoşma xorda oxuyurdu. |
| **1899** | O, rus-tatar məktəbini əla qiymətlərlə bitirmiş və elə həmin ildə təhsilini davam etdirmək üçün Qori Müəllimlər Seminariyasına daxil olmuşdur. |
| **1899-1904** | Seminariyada təhsil aldığı illərdə skripka, violonçel və nəfəs alətlərində ifa etmək bacarıqlarına yiyələnmişdir.<br>Məktəbdə saxlanılan ona aid 1422 saylı şəxsi qovluqda bir çox xasiyyətnamə mühafizə edilir. Bu xasiyyətnamələrdə onun kitab oxumağa, şəkil çəkməyə böyük maraq göstərdiyi, şeir yazdığı, Azərbaycan dilində yazılmış məqalələri rus dilinə və əksinə bacarıqla tərcümə etdiyi haqqında qeydlər edilmiş, çox çalışqan, daha səmimi və qabiliyyətli olduğu yazılmışdır.<br>Üzeyir bəy seminariyanın 25 illiyinə şeir də yazmışdır. Hətta sinifdə "Tatar şairi" adı ilə tanınırdı. |
| **1903** | Tiflisdə nəşr edilən "Şərqi-rus" qəzetində dərc etdirdiyi "Dəllək" adlı ilk felyetonunu da məhz seminariyada oxuyarkən yazmışdır. |
| **1904, 5 iyun** | Üzeyir bəyin seminariyadakı son təhsil ilində - verilmiş xasiyyətnamədə onun gələcəkdə dahi bir şəxsiyyət olacağı |

| | |
|---|---|
| | haqqında yazılmışdır: "...Ü.Hacıbəyovdan mükəmməl müəllim, gözəl musiqiçi çıxacaq". |
| **1904** | Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra Üzeyir bəy Hadrut kəndində müəllim işləmişdir. |
| **1905-1908** | Erməni-müsəlman münaqişəsi başladığı üçün Bakıya gəlir və Bayılın Bibiheybət qəsəbəsində fəhlə uşaqlarına rus dili, hesab və təbiət fənlərindən dərs deməyə başlayır. |
| **1905 dekabr – 1908 iyun (fasilə ilə)** | "İrşad" qəzetində mütərcim və felyetonçu işləmişdir. |
| **1907** | "Rus-tatar və tatar-rus siyasi, hüquqi, hərbi və digər sistemlərdən olan terminlər lüğəti"ni; |
| **1908** | Milli məktəblərdə dərsliklərin çatmadığına görə isə Komarovun tərtib etdiyi "Hesab" dərsliyi əsasında Azərbaycan dilində "Hesab məsələləri" adlı dərsliyini tərtib etmişdir. |
| **1905-1908** | Azərbaycan şairi Füzulinin eyniadlı poeması əsasında ilk Azərbaycan operası "Leyli və Məcnun" üzərində işləyərək bəstəkarlıq fəaliyyətinə başlamışdı. |
| **1908, 12 yanvar** | Azərbaycanda muasir professional musiqi sənətinin əsasını qoyan "Leyli və Məcnun" operasının ilk tamaşası olmuşdur. |
| **1908-1909** | "Tərəqqi" qəzetinin felyetonçusu və müvəqqəti redaktoru vəzifəsini icra etmişdir. |
| **1909, 24 may** | "Ər və arvad" operettasının ilk tamaşası olmuşdur. |
| **1908-1911** | "Səadət" xeyriyyə cəmiyyətinin "Səadət" məktəbində rus dili, hesab və təbiət fənlərindən dərs demişdir. |
| **1909** | "Şeyx Sənan" adlı ikinci operasını yazır. Üslubuna görə bu əsəri xeyli dərəcədə fərqlənirdi və əsasən müəllifin musiqisindən ibarət idi. Noyabrın 30-da ilk tamaşası olmuşdur. |
| **1909-1910** | "Həqiqət" qəzetinin redaktoru olmuşdur. |
| **1910** | "O, olmasın bu olsun" operettasını yazmışdır. |
| **1910–1915** | Yazdığı dörd yeni opera ənənəvi Azərbaycan muğamı əsasında qurulmuşdur: |
| **1910, 12 noyabr** | "Rüstəm və Söhrab" operasının ilk tamaşası də Bakıda Tağıyev teatrında olmuşdur. |
| **1911, 25 aprel** | "O olmasın, bu olsun" operettasının ilk tamaşası olmuşdur. |
| **1911** | "Şah Abbas və Xurşudbanu" operasını yazmışdır. |

| | |
|---|---|
| | Sistematik musiqi təhsili almaq üçün Moskvaya köçmüşdür. |
| **1912, 10 mart** | “Şah Abbas və Xurşud banu” operasının ilk tamaşası olmuşdur. |
| **1912,18 may** | "Əsli və Kərəm" operasının ilk tamaşası olmuşdur. |
| **1912-1913** | Moskva Filarmoniya Cəmiyyəti yanında Aleksey İlyinskinin xüsusi musiqi kurslarında təhsil almışdır (solfeco N.M.Laduxinin, harmoniyanı N.N.Sokolovskinin rəhbərliyi altında). |
| | Peterburqa köçmüşdür. |
| **1913, 25 oktyabr** | "Arşın mal alan" operettasını tamamlamış və Bakıda operettanın ilk tamaşası olmuşdur. |
| **1914** | Peterburq Konservatoriyada təhsil almışdır. |
| **1914–1918** | "Yeni iqbal" qəzetinin redaktoru, sonra sahibi, daha sonra "Azərbaycan" qəzetinin redaktoru olmuşdur. |
| | "Harun və Leyla" operasının üzərində işləmişdir. |
| **1915-ci ill** | “Harun və Leyla” operasının librettosunu nəşr etdirmişdir. |
| **1916, fevral** | “Yeni İqbal” qəzetinin redaktoru olmuşdur. |
| **1918, iyun-sentyabr** | Azərbaycan opera sənətçilərinin İranın Ənzəli və Rəşt şəhərlərinə qastrol səfərini idarə etmişdir. |
| **1920** | Xalq Konservatoriyasının təşkilində iştirak etmişdir. |
| **1920-1921** | Qadınlar klubu yanında Xalq Çalğı Alətləri Orkestrini təşkil etmişdir. |
| **1922–1926** | Onun təşəbbüsü ilə yaradılan Azərbaycan Türk Musiqi Məktəbinə (indiki Asəf Zeynallı adına Bakı Musiqi Kolleci) rəhbərlik etmişdir. |
| **1925** | Bakı İşçi Xalq Deputatları Sovetinin deputatı seçilmişdir. |
| **1926** | Azərbaycan Konservatoriyasının prorektoru olmuşdur. |
| **1931** | Azərbaycan xalq çalğı alətləri orkestrini təşkil etmişdir. |
| **1936** | "Koroğlu" operasını yazmışdır və bu opera bəstəkarın ən yaxşı əsəri hesab olunur. Hacıbəyov "Koroğlu" operasından başqa bütün əsərlərinin librettosunun müəllifi idi. |
| | Dövlət xorunu təşkil etmişdir. |
| **1937** | SSRİ Ali Sovetnin deputatı olmuşdur. |
| | “Azərbaycan Xalq artisti” fəxri adına layiq görülmüşdür. |

| | |
|---|---|
| **1938** | Hacıbəyov "Lenin" ordeni ilə təltif edilmiş, |
| | SSRİ xalq artisti adına layiq görülmüşdür. |
| **1938-1939** | Azərbaycan Bəstəkarlar İttifaqının sədri olmuşdur. |
| **1939** | Bəstəkar Azərbaycan Konservatoriyasının rektoru təyin edilmiş, SSRİ Bəstəkarlar İttifaqının 1-ci qurultayının təşkilat komitəsinin üzvü seçilmişdir. |
| | Bəstəkarın yarımçıq qalmış "Firuzə" operasını isə bəstəkar İsmayıl Hacıbəyov tamamlamışdır. |
| **1939-1941** | İndiki Asəf Zeynallı adına Bakı Musiqi Kolleci) rəhbərlik etmişdir. |
| **1940** | SSRİ Dövlət mükafatları komitəsinin üzvü olmuşdur. Professor fəxri adına layiq görülmuşdür. |
| | “Koroğlu” operası üçün SSRİ Dövlət mükafatına layiq görulmuşdür. |
| **1941** | SSRİ Ali Sovetnin deputatı olmuşdur. |
| **1941** | “Koroğlu” operasına görə Üzeyir Hacıbəyova "Stalin" mükafatı verilmişdir. |
| **1942** | Muğam və xalq mahnılarının ifası məsələsinə dair Bakıda keçirilən müşavirədə çıxış etmişdir.<br>SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı incəsənət bölməsinin rəhbəri olmuşdur. |
| **1943** | Tank kolonunun inşası üçün öz cibindən 25.000 rubl bağışlamışdır. |
| **1944** | Qafqaz respublikaları musiqi ongünlüyünün bədii rəhbəri olmuşdur. |
| **1944, dekabr** | Azərbaycan Dövlət Simfonik Orkestrinə Üzeyir Hacıbəylinin adı verilmişdir. |
| **1945** | “Azərbaycan xalq müsiqisinin əsasları” kitabı nəşr edilmişdir. |
| | Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. |
| | “Qırmızı Əmək Bayrağı” ordeni ilə təltif edilmişdir. |
| **1945, sentyabr** | Üzeyir Hacıbəylinin 60 illik yubileyi təntənəli surətdə keçirilmişdir. |
| **1945, dekabr** | Musiqi ifaçılarının Ümumittifaq müsabiqəsinin münsiflər heyətinin üzvü olmuşdur. |

| | |
|---|---|
| **1945-1948** | Azərbaycan SSR EA İncəsənət İnstitutunun direktoru olmuşdur. |
| **1946** | "Arşın mal alan" kinofilminin musiqi müəllifi kimi SSRİ Dövlət mükafatına layiq görülmüşdür. |
| **1947** | Şəkərli diabetdən əziyyət çəkən Üzeyir Hacıbəyovun vəziyyəti ağırlaşmış və Moskva şəhərinin Kremlin xəstəxanasında müalicə almağa başlamış, daha sonra Mərdəkandakı dövlət sanatoriyasına köçürülmüşdür. |
| **1948, 23 noyabrın** | Gecə saat 2 radələrində bəstəkar Bakıda, "Monolit" binasının dördüncü mərtəbəsindəki mənzilində ürək çatışmazlığından vəfat etmişdir. |
| | Bakıda Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur. |
| **1995, 8 sentyabr** | Üzeyir Hacıbəylinin 110 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. |
| **1995, 18 sentyabr** | Üzeyir musiqi gününün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Fərman imzalamışdır. |
| **2005, 28 fevral** | Üzeyir Hacıbəylinin 120 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. |
| **2008, 18 sentyabr** | Bakı Musiqi Akademiyasına Üzeyir Hacibəylinin adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. |
| **2008** | YUNESKO-nun himayəsi ilə Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının 100 illiyi qeyd olundu. |
| **2010, 23 fevral** | Üzeyir Hacıbəylinin 125 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. |
| **2025, 3 fevral** | Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. |